# Qarabağın bərpasına, dirçəlişinə hər birimiz töhfə verməliyik



***Azərbaycan xalqı hazırda öz tarixinin ən şanlı dövrünü yaşayır. 44 günlük Vətən müharibəsi nəticəsində doğma Qarabağımız, eləcə də milli mədəniyyətimizin beşiyi olan Şuşa şəhəri yağı düşməndən azad edilib. Bu, xalqımızın qədim tarixinin ən parlaq səhifələrindən biridir. Bu parlaq qələbə Ali Baş Komandan İlham Əliyevin yüksək qətiyyəti və rəşadətli Azərbaycan Ordusunun qeyri-adi qəhrəmanlığı sayəsində mümkün olub. Qədirbilən xalqımız öz qəhrəmanlarını heç vaxt unutmayacaq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimiz tezliklə şəfa tapsınlar.***

İndi dövlətimizin və xalqımızın qarşısında duran əsas vəzifə Qarabağın hər bir guşəsinin bərpası, dirçəldilməsidir. Bu istiqamətdə görülən işlər barədə xəbərləri eşidəndə ölkəmizin hər bir vətənpərvər insanı, ziyalısı kimi, mən də çox sevinirəm.

Görünən həqiqət budur ki, doğma Qarabağ bu gün böyük tikinti-quruculuq meydanına çevrilir. Xalqımızın sevimli lideri İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə atılan bütün addımlar hər birimizdə dərin qürur və böyük sevinc hissləri doğurur. Azad edilmiş ərazilərdə bu il yanvarın 19-da Prezidentin xüsusi nümayəndəsi institutu yaradılmışdır. Birinci təyinat məhz Şuşa rayonuna olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev bu il yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda dərin məzmunlu çıxış edərək mühüm tövsiyələr vermişdir. Möhtərəm Prezidentimiz Şuşa ilə bağlı necə də gözəl demişdir: “Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır”.

Bəli, cənab İlham Əliyevin xüsusi vurğuladığı kimi, Şuşa bütün dövrlərdə həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb qəbul etmişdir.

Erməni şovinistləri son günlər dünyanın bir sıra ölkələrinin KİV-ində Azərbaycan ilə bağlı yenidən çox saxta ittihamlar irəli sürür, xalqımıza, ordumuza böhtanlar atırlar. Lakin bütün bunlar əbəsdir. Yalan ayaq tutar, yeriməz. Şuşada tarixi həqiqət əbədi bərpa olunub. Azərbaycan xalqı Şuşanı göz bəbəyi kimi əbədi qoruyacaq.

Bir məqamı xüsusi vurğulamaq istəyirəm. Azərbaycan Prezidenti Şuşanı Azərbaycanın Mədəniyyət paytaxtı elan etmişdir. İnanıram ki, dahi Üzeyir bəyin, Bülübülün, Natəvanın Vətəni olan Şuşanın bundan sonrakı qərinələr, əsrlər boyu çox zəngin mədəni həyatı olacaq. Həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə burada bir-biindən maraqlı tədbirlər – festivallar, müsabiqələr keçiriləcək.

Erməni vandalları Qarabağda, o cümlədən Şuşada maddi mədəniyyət abidələrimizi dağıtmaqla vəhşiliklər törədiblər. Azərbaycan xalqı isə onlardan fərqli olaraq qurub-yaradan xalqdır. Bu günlərdə Füzulidən Şuşaya gözəl yol çəkilir. Füzulidə həm də hava limanı inşa edilir və bu ilin sonuna qədər istifadəyə veriləcək. Şuşa, bütün Qarabağ tezliklə laləzara çevriləcək. Dünyanın mədəniyyət incisi olan Şuşa ilə bağlı müxtəlif ölkələrdə təqdimatlar və sərgilər keçiriləcək. Dostlarımız bunu görüb sevinəcəklər, düşmənlərimiz isə xar olacaqlar.

Əlbəttə, Şuşanın bərpası, dirçəlməsi hamının işidir. Heç kəs bu xeyirxah işdən kənarda durmamalıdır. Azərbaycanın hər bir vətəndaşı, vəzifəsindən, sosial imkanlarından asılı olmayaraq, kimin nəyə gücü çatırsa, bu istiqamətdə əlindən gələni etməyə borcludur.

***Anar AĞAYEV,***
***Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru***

Xalq qəzeti 2021.- 31 yanvar.- S.6.